

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 94 (23.736)

*26 may 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib. Prezident İlham Əliyev pandemiyaya baxmayaraq, iki ölkə arasında ticarət dövriyyəsində artım olduğunu, dövlət başçıları tərəfindən irəli sürülmüş bütün təşəbbüslərin, qəbul olunmuş qərarların həyata keçirildiyini diqqətə çatdırıb. Bildirilib ki, hazırda ölkələrimiz arasında əlaqələr, bəlkə də, əməkdaşlığımızın tarixində ən yüksək səviyyədədir. İran və Azərbaycan iki qardaş ölkə olaraq səyləri əlaqələndirməli, regionda bütün bölgə ölkələrinin xeyrinə uzunmüddətli və dayanıqlı sülh şəraitində inkişafa töhfə verməlidir.

İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif Azərbaycana, bu regiona gətirməyə müvəffəq olduğu inkişafa görə Prezident İlham Əliyevə dərindən heyran olduğunu bildirib, Azərbaycan torpaqlarının azad edilməsində tarixi rol oynadığına görə dövlətimizin başçısını təbrik edib, indi isə regiona sülh gətirmək üçün tarixi bir rol oynaya biləcəyini vurğulayıb.

***

Prezident İlham Əliyev mayın 25-də “Signify” – əvvəlki adı “Philips Lighting” olan şirkətin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini qəbul edib. Görüşdə “Signify” şirkəti tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin icrası müzakirə olunub.

## “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalı iştirakçılarının əsərlərindən ibarət sərgi açılmışdır

Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalı keçirilmişdir.

Mayın 25-də Naxçıvan şəhərindəki “Saat Meydanı” Turistik İstirahət Mərkəzində festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərginin açılışında iştirak etmişdir.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, muxtar respublikada rəssamlığın və təsviri sənətin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin Sərəncamı ilə bu il Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunur. Ötən dövrdə rəssamlıq sənətinin inkişafı diqqətdə saxlanılmış, ali təhsil ocaqlarında müvafiq ixtisaslar açılmış, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılmışdır. Rəssamlar Birliyi üçün yeni bina və emalatxana istifadəyə verilmiş,



rəssamlardan 1-i Azərbaycan Respublikasının Xalq rəssamı, 1-i İncəsənət xadimi, 5-i Azərbaycan Respublikasının, 6-sı isə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı fəxri adlarına layiq görülmüşdür. 2012-ci ildən başlayaraq “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalına start verilmiş, 4 beynəlxalq rəsm festivalı keçirilmişdir. Həmin festivallarda, ümumilikdə, 29 ölkədən 172 rəssamın 181 əsəri təqdim olunmuşdur.

Ülviyyə Həmzəyeva göstərilən yüksək diqqət və qayğıya görə festival iştirakçıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festival iştirakçılarını salamlayaraq demişdir: “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalı ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuşdur. İki ildən bir keçirilən beynəlxalq rəsm festivalı artıq ənənə halını almışdır. Dünyada pandemiyanın yayılması festivalın keçirilməsinə mane olmadı. Əvvəlki festivallarda olduğu kimi, builki festivalda xarici ölkələrdən olan rəssamlar birbaşa deyil, öz əsərlərini göndərməklə iştirak ediblər.

“Festivalın keçirilməsi əlamətdar təqvimə təsadüf edir. May ayında böyük şəxsiyyət Heydər Əliyev anadan olmuşdur. Eyni zamanda bu ay təbiət oyanır, gözəlləşir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, təbiətin bu gözəl mövsümü rəssamlar üçün geniş yaradıcılıq imkanları açır. Festivallarda



çəkilən əsərlər Naxçıvanın tarixini, təbiətini, müasir inkişafını fərqli yanaşmalarla özündə əks etdirir. Hər festivaldan sonra həmin əsərlərdən ibarət kataloqlar hazırlanıb nəşr etdirilir. Bununla da festivallar tarixə çevrilir. Gələcəkdə həmin kataloqlara nəzər yetirənlər belə bir tədbirin ənənəvi şəkildə keçirildiyini görəcək və bunu davam etdirəcəklər.

Ali Məclisin Sədri festival iştirakçılarına təşəkkür etmiş, rəssamlara yaradıcılıq uğurları arzulamış və sərgiyə baxmışdır.

Bildirilmişdir ki, festivalda ölkəmizin digər bölgələrindən 18, Naxçıvan Muxtar Respublikasından isə 22 olmaqla, 40 rəssam iştirak etmişdir. Festivalda Türkiyə, İran, Rusiya, Özbəkistan, Türkmənistan və Kosovadan 23 rəssam onlayn şəkildə iştirak edərək Naxçıvana həsr olunmuş əsərlər çəkmişlər. Sərgidə rəssamların festivalda çəkdikləri 44 rəsm əsəri nümayiş olunur.

Rəssamlardan Cavid İsmayılovun “Qayıdış”, Eldar Qurbanovun “Festival”, Arzu Novruzovun “Zəngəzur dəhlizi”, Həbibə Allahverdiyevanın “Həsrət bitdi, Naxçıvan”, Səriyyə Əkbərovanın “Güllü-çiçəkli Naxçıvanım”, Adil Yusifovun “Dağlar”, Hökümə Məmmədlinin “Naxışlar diyarı”, Həbib Allahverdiyevin “Şuşa”, Ülviyyə Həmzəyevanın “Üçqardaş piri”, Nəsrullah Musayevin “Naxçıvan təbiəti”, Nailə Əhmədovanın “Naxçıvanın gözəlliyi”, Təranə Seyidin “Qoç dağlar”, İrina Eldarovanın “Laləli Naxçıvan”, Qəhrəman Tağıyevin “Haçadağ”, Fikrət Babayevin “Aza körpüsü” və digər əsərlər rəssamların zəngin təxəyyülünün və peşəkarlığının ifadəsinə çevrilmişdir.

Rəssamlardan Eldar Qurbanov və İrina Eldarova festivalın yüksək səviyyədə keçirilməsindən məmnunluqlarını bildirmiş, bundan sonrakı festivallarda da iştirak edəcəklərini qeyd etmişlər.

*Ardı 2-ci səhifədə*



Festivalda 2012-ci ildən etibarən keçirilən “Naxçıvan – başəriyyətin beşiyi” Beynəlxalq Rəsm festivallarının, Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş “Yurdumun rəngləri” albom-kataloqları, eləcə də müxtəlif dövrlərdə nəşr olunmuş “Bəhruz Kəngərli”, “İbrahim Səfiyev” albom-kataloqları, rəssam İqbal Həsənəlizadənin Naxçıvan abidələrinin həkk olunduğu “Qoç heykəli” maketi də nümayiş olunmuşdur.

Ali Məclisin Sədri festivalda çəkilən əsərlərdən aidiyyəti üzrə muzeylərdə nümayiş etdirilməsi barədə tapşırıqlar vermişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Alternativ enerji mənbələrindən istifadə iqtisadi gücümüz, gələcəyə baxışımızdır



*Müasir dövrdə ölkəmizin sərhədlərinin etibarlı müdafiəsindən tutmuş iqtisadi-mədəni həyatın bütün sahələrinədək özünün möhkəm güclü konsepsiyasını ortaya qoymuş Azərbaycan Respublikası enerji təhlükəsizliyi sahəsində də dünya liderləri ilə bir sırada əmin addımlarla irəliləməkdədir.*





Bu gün Avropanın enerji mübadiləsi xəritəsində ən etibarlı tərəfdaş kürsüsünü tutmuş Azərbaycan ixrac oluna bilən zəngin karbohidrogen ehtiyatlarına rəğmən alternativ və bərpa olunan enerji mənbələrindən istifadədə də qərarlılığını nümayiş etdirməkdə, işğaldan azad olunmuş Qarabağ torpaqlarında ilk həyata keçirdiyi irimiqyaslı quruculuq tədbirləri arasında yaşıl enerji və ağıllı kənd layihələri ilə də diqqətləri cəlb etməkdədir. Bu baxımdan bərpa olunan enerji mənbələri ilə zəngin olan Naxçıvan Muxtar Respublikasında illər ərzində görülmüş işlər və əldə olunmuş nəticələr ölkəmizin bu sahədə böyük potensialından xəbər verir. Çünki bu potensial həm də bizim iqtisadi gücümüz və gələcəyə ümumi baxışımızdır.

Naxçıvan Muxtar Respublikası özünün enerji təminatı və enerji təhlükəsizliyi məsələlərinin həllində unikal təcrübə əldə edib. Səbəb-nəticə əlaqələri baxımından bu təcrübənin arxa zəminində Naxçıvanın artan sənayeləşmə və əhalinin mədəni tələbatları ilə yanaşı, regionun uzun dövr ərzində blokada şəraitində olmasını da görmək olar. Belə ki, ötən əsrin 90-cı illərindən başlayaraq Naxçıvandakı bütün iqtisadi aktivliyi və sosial həyatı iflic vəziyyətinə salmış olan enerji çatışmazlığı daha sonralar regionda həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində tamamilə aradan qaldırılmış, elektrik enerjisi ilə təminatda alternativ mənbələrdən istifadəyə maraq daha da artmışdır. Yaxın keçmişə qısa nəzər saldıqda görürük ki, Azərbaycanın müstəqilliyinin ilk illərində Araz çayı üzərindəki su elektrik stansiyasının verdiyi cüzi enerjinin ümidinə qalmış Naxçıvanda keçən müddət ərzində inşa olunmuş, əsasən, bərpa olunan enerji mənbələri ilə işləyən müxtəlif elektrik stansiyaları hesabına enerji təminatı yüz faizə çatmış, ixracat potensialı da yaranmışdır. Bütün bu görülən işlərə ən yüksək qiymət isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu il may ayının 10-da Naxçıvana səfəri zamanı verilmişdir. Ölkə başçısı Naxçıvanın enerji ilə təminatını yüksək qiymətləndirərək demişdir: ***“Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir”.***

Hazırda Naxçıvanda elektrik enerjisi istehsalında kifayət qədər güc və etibarlı infrastruktur vardır. Belə ki, 2020-ci ildə muxtar respublikanın elektrik stansiyalarında 424 milyon 414 min kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 47 faizinə qədəri regionda istifadəyə cəlb olunmuş alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür. Naxçıvandakı çayların güclü hidroenerji potensialı və bu torpağın bol günəşi burada hər iki mənbə hesabına əldə olunan enerjinin iqtisadi səmərəliliyini artıran amillərdəndir. Səmərəlilik baxımından regionda enerjiyə olan tələbat bu strateji sahədə idxaldan asılılığın aradan qaldırılması ilə yanaşı, həm də gələcək perspektivlərin də nəzərə alınması ilə daha da artmaqdadır. Belə ki, əhalinin artan tələbatları ilə yanaşı, Naxçıvanda sənaye, kənd təsərrüfatı, meliorasiya, dəmir yolu nəqliyyatı və digər sahələrdə elektrik enerjisinə olan ehtiyac davamlı olaraq artmaqdadır. Buna görə də mövcud güc mənbələrinin daha da şaxələndirilməsi, enerji istehsalı ilə yanaşı, onun ötürülməsində texniki itkilərin minimuma endirilməsi məqsədilə yeni stansiyaların tikintisi də davam etdirilməkdədir. Belə ki, hazırda Ordubad rayonu ərazisində Araz çayı üzərində tikilən derivasiyatipli 36 meqavat gücündəki Ordubad Su Elektrik Stansiyası, gücü 15,6 meqavat olacaq Tivi Su Elektrik Stansiyası, Culfa rayonu ərazisində 1,1 meqavat gücündə olacaq Külək-Günəş Hibrid Elektrik Stansiyası, Şərur rayonunda artıq istifadəyə hazır olan və ilkin mərhələdə layihə gücü 5 meqavat olacaq yeni Günəş Elektrik Stansiyası bu uğurlu işlərin davamıdır.

Göründüyü kimi, muxtar respublikamızda alternativ enerji layihələrindən istifadədə geniş hədəflər vardır. Hər sahədə inkişaf edən bir regionda yeni dövrün çağırışı kimi bu belə də olmalıdır. Belə ki, alternativ enerji layihələrindən istifadə olunduğu, iqtisadi səmərəliliyin yüksək olduğu yeniliklərin geniş tətbiq olunduğu bir sahədir. Öz xərcini çıxardıqdan sonra çox ucuz qiymətə təmiz enerji istehsal olunduğu, iqtisadi və ekoloji davamlılıq baxımından sərfəli olan belə layihələrin həyata keçirilməsi regional inkişaf və uzunmüddətli investisiya cazibədarlığı ilə yanaşı, eyni zamanda beynəlxalq əməkdaşlıq baxımından da ölkəmizin imicinin yüksəlməsinə mühüm töhfədir. İndi Naxçıvana gələn hər bir qonaq buradakı inkişafı öz gözləri ilə görür və ölkəsində Azərbaycanın bu qədim diyarından fəxrlə danışır.

**✍ Əli CABBAROV**

*Ailə təsərrüfatlarımız*

## Naxçıvanda qızılgüldən qiymətli məhsullar hazırlanır

Bahar həyatın əlvan tonunu gün keçdikcə dəyişir. Bağ-bağçalarımız müxtəlifrəngli gül-çiçəklərlə bəzənir. Hər bitki, hər çiçək özünəməxsusluğu ilə seçilir. Bir gül var ki, gözəlliyi, ətri ta uzaqlardan hamımızı valeh edir. Bu, qızılgüldür. Bəs qızılgülü digər güllərdən qiymətli edən təkcə ətridirmi? Bu suala cavab tapacağıq.



Min illərdir, əkilib-becərilən qızılgül cinsinin dünya florasında 600-ə qədər növü və minlərlə müxtəlif sortları yetişdirilir. Bir çox ölkələrin milli gülü olan qızılgülün çiçəklərindən alınan efir yağı qızıldan qiymətli sayılır, məhz bu məqsədlə də becərilir. Məlumat üçün bildirək ki, efir yağlarının istehsalı üzrə lider ölkələr siyahısında Fransa, Bolqarıstan, Türkiyə, İran, Çili və İndoneziyanın adı çəkilir. Azərbaycanda bu sahə orta əsrlərdə inkişaf etməklə sanballı gəlir mənbəyinə çevrilib. Bu gün də ölkəmizdə gülçülük sahəsinə və güldən hazırlanan efir yağına xüsusi diqqət göstərilir və istehsal olunan yağ xaricə ixrac edilir. Şəki-Zaqatala bölgəsi bu baxımdan, xüsusilə seçilir. Bu güldən ətriyyatda, konserv sənayesində, ətirli çayların hazırlanmasında və təbabətdə geniş istifadə edilir. Qızılgüldən hazırlanan gül mürəbbəsi, gülqənd, gül suyu və gülab milli kulinariyamızda geniş yer tutur. Qızılgül yağının, qızılgül dəmləməsinin müalicəvi vasitə kimi istifadəsi davam etdirilir.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda qızılgül çox qədim zamanlardan əkilib-becərilir. Diyarımızın iqlim şəraiti kənd təsərrüfatı sahəsində müxtəlif qızılgül növlərinin yetişdirilməsinə imkan verir. Muxtar respublikamızda qızılgül əkini sahələrinin genişləndirilməsi, gülab və gül yağı istehsalının dəstəklənməsi, xüsusilə diqqətdə saxlanılır. Son illər Ordubad rayonunun Əylis, Dəstə, Düylün və digər kəndlərində qızılgül kolları əkilir, ailə təsərrüfatçıları ondan müxtəlif məhsullar əldə edirlər. Bu qiymətli bitkidən fayda götürənlərdən biri də Ordubad rayon sakini Afət Məmmədovadır. Bildirim ki, müsahibim gözəl gülab hazırlayır. Lakin onun hazırlanma qaydasına keçməzdən əvvəl qızılgül barədə ətraflı məlumat alırıq. Təsərrüfatçı qeyd edir ki, qızılgül isti sevən bitkidir. Günəş yaxşı düşən yerdə bu gül çox məhsuldar olur. Əsasən, bağlarda, həyətyanı sahələrdə becərilir və may, iyun aylarında çiçəkləyir. Qızılgülün ləçəklərini səhər tezdən əl ilə toplayırıq. Ləçəklər vaxtında yığılmazsa, sola, tələf ola bilər. Bu gülün ən yaxşı xüsusiyyəti yığıldıqdan bir-iki gün sonra çiçəklədiyi üçün məhsuldar olması, yenidən toplanılmasının mümkünlüyüdür. Topladığımız qızılgülü ləçəklərə ayırır, ondan mürəbbə, gülqənd, gül suyu və gülab hazırlayıram. Bunların hamısı sağlamlığımız üçün olduqca faydalıdır. Ümumiyyətlə, qızılgül həm cana dərmandır, həm də gəlir əldə etmək baxımından əlverişlidir.

Gülabın hazırlanma qaydasından danışan müsahibim deyir ki, tərkibi su və qızılgüldən ibarət olan gülab, əsasən, buxarlanma üsulu ilə hazırlanır. İndi xüsusi aparatlarımız var ki, məhsul onunla daha asan başa gəlir. Əvvəlcə ocağın üzərinə adi mis qazan qoyur, dörd kiloqram qızılgül ləçəyini içərisinə yığır, üstünə altı litrdən çox su tökürük. Ocağın altını qalayırıq. Bu qarışım saatlarla qaynayır. Bu zaman yaranan buxar gülab damlalarına çevrilir və aparatın borusu vasitəsilə balona yığılır. Dolan balonu dəyişərkən yenidən qazana gül və su əlavə edirik. Gülab suyu ilə dolu qabları gətirib günəş yaxşı düşən yerə qoyuruq. Əvvəlcə əldə etdiyimiz məhsul, adətən, iysiz olur, lakin 10, 15 gün saxlandıqdan sonra tamını və ətrini alır. Uzun müddət qalması üçün şüşə qabda saxlamaq daha məqsədəuyğundur. Ancaq həmin qabın ağzını möhkəm bağlamaq lazımdır ki, ətri itməsin. Afət xanım deyir ki, gülab ürəyin dərmanıdır. Onun sakitləşdirici xüsusiyyəti vardır və bu, ürək döyüntüsünü azaldır, mədəni möhkəmləndirir, stresi aradan qaldırır, göz xəstəlikləri, eləcə də baş ağrısı üçün faydalı hesab edilir. Onu çaya qarışdırmaqla içmək, eyni zamanda paxlava və digər şirniyyat məhsullarının, müxtəlif xörəklərin hazırlanmasında istifadə etmək olar. Toy və ziyafət məclislərində, qonaq qəbul edildikdə, hüzr mərasimlərində gülabdan istifadə isə bizdə nənə-babalarımızdan qalma adətdir.

Müsahibim onu da bildirir ki, hədislərimizdə qızılgül ən üstün cənnət güllərindən hesab edilir. Gülabı əlinə və üzünə çəkib Allaha həmd, Peyğəmbərə salavat göndərmək insanın daxili aləmini saflaşdırır, zənginləşdirir, onu çətinliklərdən uzaqlaşdırır. Qızılgülü qoxladıqda, kiməsə təqdim etdikdə və aldıqda xoş təəssürat, müsbət ruh bəxş edir. Bir sözlə, bu gülün hər baxımdan faydası çoxdur. Ondan səmərəli istifadə etmək isə bizim öz əlimizdədir.

Beləliklə, ixrac potensialı yüksək sahələrdən olan gülçülüyün inkişaf etdirilməsi muxtar respublikamızda əsas istiqamətlərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın icrası bu işdə mühüm rol oynayır. Gələcəkdə diyarımızda gülçülüyün inkişafında yaranan yeni imkanlar hesabına gülab və gül yağının istehsalı artacaq, bu məhsullar özünə xarici bazarda da yer tuta biləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# “Beynəlxalq Duzdağ araşdırmaları” konqresi olub

Naxçıvan Dövlət Universitetində keçirilən konqresin plenar iclasını giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Naxçıvanın simvollarından biri hesab olunan, təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağ qədim diyarımızda ilkin şəhər mədəniyyətinin formalaşmasında böyük rol oynayıb. Buradan hələ min illər əvvəl, Nuh Peyğəmbərin dövründən duz çıxarılması ilə bağlı məlumatlar vardır, bu nemət Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə duz yolu vasitəsilə daşınıb.

Vurğulanıb ki, Naxçıvanın tarixində Duzdağın və duzun oynadığı mühüm rol nəzərə alınaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyi yaradılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olduğunu diqqətə çəkən akademik vurğulayıb ki, Duzdağ olmadan Naxçıvanı öyrənmək, iqtisadi, mədəni, hətta ictimai-siyasi qiymət vermək çox çətindir. Bildirilib ki, Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə aparılan arxeoloji tədqiqatların davamı kimi “Uluslararası qaynaqlarda Naxçıvan”, “Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan”, “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi”, “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapıb, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanıb, kitablar nəşr olunub. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi keçirilib, “Naxçıvan Duzdağı” adlı yeni, nəfis şəkildə nəşr olunan elmi kitab işıq üzü görüb.



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvana həmişə böyük maraq olub, Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılıb, bizim eradan əvvəl V-III minilliklərə aid maddi mədəniyyət nümunələri aşkar edilib, tarixi əhəmiyyət daşıyan nəticələr əldə olunub. Müəyyən edilib ki, Naxçıvan Duzdağı dünyanın ən qədim duz mədənidir. Burada duz mədən üsulu ilə eramızdan əvvəl V minillikdən çıxarılmağa başlanılıb. Akademik qeyd edib ki, bir neçə min il bundan əvvəl Duzdağın insanlara məlum olması, duzun çıxarılması, istifadəsi, daşınması, satışı Naxçıvanda yaşayış məskənlərinin genişlənməsinə və şəhərləşmə işinin inkişafına təkan verib. Duzdağ Naxçıvanda şəhərtipli mədəniyyətin əsasında dayanan ən mühüm amil olub.

İqdır Universitetinin rektoru, professor Məhmət Hakkı Alma dünyada ən çox duz istehsal edən ölkələrin adlarını sadalayıb. Vurğulanıb ki, Türkiyənin Çankırı Duz Mağarası Türkiyənin ən çox qaya duzu çıxarıldığı bölgələrindəndir. Eyni zamanda bu duz mağarasının muxtar respublikada olan Duzdağ ilə bərabər, tənəffüs yolu xəstəliklərinin müalicəsində mühüm əhəmiyyətə malik olduğu vurğulanıb. Qardaş ölkənin rektoru birgə konfransların önəmini diqqətə çəkib, ortaq elmi tədqiqatların, akademik elmi araşdırmaların əhəmiyyətindən danışıb.

AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əlövsət Quliyev bildirib ki, diyarımızın qədim tarixini və mədəni potensialını özündə cəmləşdirən Duzdağ həm də şəfaverici xüsusiyyətinə görə tanınır. 1979-cu ildə yaradılan Duzdağ Fizioterapiya Mərkəzində hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Vurğulanıb ki, son illərdə muxtar respublikamıza gələn yerli və xarici turistlərin ən çox ziyarət etdikləri ünvanlardan biri olan Duzdağ hətta müalicə səbəbi olmadan gəlib-görmək istəyənlərin də sayı çoxalıb.

Konqres “Duzdağın kimyası və müalicəvi əhəmiyyəti, “Sosial, iqtisadi və mədəni təsirdə Duzdağ”, “Duzdağ və ətrafının florası” adlı 3 bölmədə davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# “Naxçıvan əsl ədəbi-sənət məktəbi, yaradıcılıq ocağıdır”

## *Festival iştirakçıları Naxçıvandan bu təəssüratlarla ayrıldılar*



***Mayın 25-də “Saat Meydanı” Turistik İstirahət Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Naxçıvan-bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalında iştirak edən rəssamlar tərəfindən çəkilmiş əsərlərdən ibarət sərgi açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun açılışında iştirak etdiyi sərgidə 40 rəssamın 44 əsəri nümayiş olunub.***

Biz də sərgidə əsərləri nümayiş olunan rəssamlarla həmsöhbət olduq. Festivalda ilk dəfə iştirak edən rəssam *Təranə Seyid* dedi ki, mən Naxçıvanı, xüsusilə çox sevirəm. Çünki buranın tarixi lap qədimdir, bəşəriyyətin əzəli, məncə, bu diyardan başlayır. Festivalda kətan üzərinə “Qoç daşlar” rəsmi işləmişəm Ana adına ucaldılan bitkin bir xatirə abidəsi, Azərbaycan, bütünlükdə Şərq qadınının ləyaqət mücəssəməsi, ismət rəmzi olan Möminə xatın türbəsinin ətrafında rəsm çəkməyimiz bizə unudulmaz anlar yaşatdı. Bu seyrəngah həm də dünyada tanınan böyük memar Əcəminin adı ilə bağlı olduğu üçün bizə yaradıcılıq ecazkarlığı bəxş etmişdi. Bir sözlə desək, Naxçıvan o qədər gözəl şəhərdir ki, buranın qədimliyini və müasir görünüşünü seyr etməklə doymursan, mehriban insanlarından ayrılmaq istəmirsən. Yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdaram.



Burada olduğumuz müddətdə bir nəfərin sənətkarlıq nümunələrini xüsusi maraqla seyr etdiyini görüb ona yaxınlaşdıq. Türkiyə vətəndaşı *Alaadin Koral* ilə söhbətimiz zamanı bildirdi ki, ilk dəfədir, buraya gəlirəm. Naxçıvan təbiəti, tarixi, coğrafi mövqeyi ilə əhəmiyyətli bir yerdir. Bu gün Saat Meydanını gəzməyə gəlmişdim, təsadüfən çox gözəl bir sərgi ilə qarşılaşdım. Bu sənət əsərlərinin müəlliflərinin heç birini şəxsən tanımasam da onu deyə bilərəm ki, çəkdikləri rəsmlər valehedicidir. Ən çox diqqətimi çəkən məqam isə sənət əsərlərinin hər birində Naxçıvan motivlərinin olmasıdır. Necə deyərlər, sanki bütün rəsmlərdə Naxçıvanın melodiyası səslənir. Təbii ki, qədim tarixi, müasirlik siması, ecazkar təbiəti, tarixi-təbiət abidələri ilə zəngin olan möhtəşəm bir diyarda belə rəsmləri çəkməmək mümkün deyil. Ümumi təəssüratım belədir ki, Naxçıvanda tarixi keçmişə, milli dəyərlərə, ənənələrə böyük qayğı göstərilir və bu yaşadılaraq gənc nəslə ötürülür.

Azərbaycan Respublikasının Əməkdar rəssamı *Eldar Qurbanov* deyir ki, sərgidə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirak etməsi bizi çox sevindirdi, rəssamlarda böyük stimul yaratdı. Bu rəssam əməyinə verilmiş dəyərin parlaq nümunəsidir. Bu mənim artıq Naxçıvana festival üçün dördüncü səfərimdir və hər gəlişimdə qədim diyardan xoş təəssüratlarla ayrılıram. Həqiqətən, Naxçıvan insana yaradıcılıq həvəsi verir. Onun füsunkar gözəlliklərini kətan üzərinə həkk etmək isə bizim üçün böyük xoşbəxtlikdir. Mən də bu festivalın abhavasını elə çəkdiyim “Festival” əsərində əks etdirdim.



Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndində doğulan rəssam, pedaqoq *Rəna Məmmədova* deyir ki, 2012-ci ildə məni ilk festival üçün Naxçıvana dəvət etdikdə çox xoşbəxt oldum, 25 ildən sonra doğulduğum torpağa qayıdırdım. Xoşbəxtliyimin həddi-hüdudu yox idi. Gözlərimdə uşaqlıq xatirələrim canlanırdı. Bu xatirələri sərgi üçün çəkdiyim rəsm əsərində də göstərməyə çalışdım. Əsərimdə Möminə xatın türbəsi fonunda üç çarşablı qadını təsvir etmişdim. Çünki o dövrdə, mən uşaq olarkən analarımız başlarına çarşab bağlayardılar. Naxçıvanda keçirilən ənənəvi rəsm festivallarında iştirak etməyimiz bizi bu gözəl yurdun seyrinə tamaşa etməyə, onun əsrarəngiz mənzərələrini yaradıcılığımızda əks etdirməyə imkan verdi. Bu yurda ayaq qoyduğum anda keçirdiyim hissləri dillə ifadə etmək çətin olduğu üçün onu çəkdiyim əsərlərdə göstərməyə çalışıram.





Əsərində Haçadağı təsvir edən rəssam *Cavid Məmmədov* deyir ki, dağ ucalıq rəmzidir. Naxçıvan dedikdə həmişə ağlıma dağların qoynunda, ecazkar təbiət mənzərələri ilə gözoxşayan məkan gəlir. Buranın gözəllikləri, bizə sözün həqiqi mənasında, yaradıcılıq həvəsi verir. Rəssam üçün yaradıcılığa bir təbəssüm də kifayətdir, o təbəssümü də Naxçıvanın qonaqpərvər insanlarının simasında daim görmək mümkündür. Naxçıvana gəlməyi həm də ona görə sevirəm ki, burada Bəhruz Kəngərli yaradıcılığı ilə daha yaxından tanış olmaq imkanı qazanıram. Biz Bəhruz Kəngərli Muzeyində olarkən müşahidə etdik ki, o çəkdiyi bütün şəkilləri qəlbən çəkib və Naxçıvanın rəssamlıq tarixinə öz adını qızıl hərflərlə yazdırıb. Naxçıvan əsl ədəbi sənət məktəbi, yaradıcılıq ocağıdır. Hər daşında-qayasında şahidi olduğu tarixin izi var. Bu qədim diyarın gözəlliyi qarşısında söz də aciz qalır, rəng də, fırça da. Naxçıvandan ayrılacağımı düşünəndə çox təəssüflənirəm. Bir daha buraya gəlməyi səbirsizliklə gözləyirəm.



Sərginin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıran rəssam *Ramina Səadətxan* bildirdi ki, belə festivalların keçirilməsi Naxçıvanda rəssamlar üçün yaradılan şəraitin, eyni zamanda sənətə verilən qiymətin bariz ifadəsidir. Naxçıvan qədim zamanlardan Şərqin mədəni mərkəzlərindən biri kimi şöhrət tapıb. Bu festivalın keçirilməsi əlamətdar hadisədir. Ona görə ki, festival ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunub. Heydər Əliyev yolu, Heydər Əliyev şəxsiyyəti gənc nəslə öyrədilir, həmçinin biz rəssamlara və digər sahələrin əməkdaşlarına çatdırılır. Bunu da qeyd etmək istərdim ki, gördüklərimdən o qədər təsirlənmişəm ki, buraya bir daha gəlməyi düşünürəm. Nuh Peyğəmbərin yenidən həyat verdiyi bəşəriyyətin ilk məskəni olan Naxçıvanın insanları da, mənə elə gəlir ki, məhz buna görə istedadlı, yaradıcı, qurucudurlar.

*Festivalın sonuncu günü iştirakçılar “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi ilə də tanış olublar. Fırça ustaları qədim diyardan zəngin təəssüratla ayrılıblar.*

*Rəssamlarımızı bu qədim diyarda bir daha görmək, onların xoş təəssüratlarını eşitmək ümidi ilə...*

**✍ Məcid RƏŞADƏTOĞLU**
**✍ Aytac CƏFƏRLİ**

# Texnosərgi keçirilib

***Mayın 25-də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində muxtar respublikada ilk dəfə olaraq şagirdlərin Robotexnika dərnəklərində və STEAM təlim metodu əsasında hazırladıqları layihələrin texnosərgisi keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin tapşırığı ilə 2019-cu ildən məktəbdənkənar təhsil müəssisələrində Robotexnika dərnəklərinin fəaliyyətinə, 2020-2021-ci tədris ilindən isə muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təlim metodunun tətbiqinə başlanılıb. Bu məqsədlə ötən müddət ərzində STEAM Tədris Mərkəzi, məktəbdənkənar təhsil müəssisələrində Robotexnika və STEAM otaqları, Robotexnika dərnəyi, STEAM kabinələri yaradılıb. Ötən dövrdə təlimə aid metodik vəsaitlər və tədris proqramları çap edilərək istifadəyə verilib. Hazırda 2021-2022-ci tədris ilindən STEAM təlim metodu tətbiq ediləcək 38 məktəbdə kabinələrin yaradılması istiqamətində işlər görülür. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində növbəti tədris ilində layihə muxtar respublika üzrə 50 ümumtəhsil məktəbində 6 və 7-ci sinif şagirdləri olmaqla, 273 sinif və 5035 şagirdi əhatə edəcəkdir.

Vurğulanıb ki, STEAM-ın tətbiqi təkcə kabinələrin yaradılması və tədris materiallarının çap olunması ilə yekunlaşmayıb. Belə ki, bu sahədə kadrların hazırlanması diqqətdə saxlanılıb, STEAM təhsilinin tətbiqində yaxından iştirak edəcək müəllim-mütəxəssislərin hazırlanması məqsədilə mütəmadi olaraq ixtisasartırma təlimləri keçirilib. Bu günə qədər 80 müəllimə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, 150 müəllimə isə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən STEAM təlimləri keçirilib. Bunlarla yanaşı, STEAM Tədris Mərkəzində STEAM təlim metodunun tətbiqinin öyrədilməsi məqsədilə ali təhsil müəssisələrinin pedaqoji profilli ixtisaslarında təhsil alan tələbələr üçün seminarlar da təşkil edilib.

Təhsil naziri qeyd edib ki, təhsilə göstərilən dövlət qayğısının və yaradılan şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada ilk dəfə olaraq şagirdlərin Robotexnika dərnəklərində və STEAM təlim metodu əsasında hazırladıqları layihələrin texnosərgisi keçirilir. Bildirilib ki, texnosərgidə nazirliyin tabeliyində olan 40 təhsil müəssisəsindən 105 şagirdin hazırladığı 111 ixtiraçılıq və tədqiqatçılıq modelləri nümayiş olunur. Texnosərgi elmi-tədqiqat işinə marağı olan istedadlı şagirdlərin aşkar edilməsinə mühüm töhfə verəcəkdir.

Sonra videoçarx nümayiş olunub. Şagirdlər hazırladıqları robotexnika, mikroidarəetmə, rəqəmsal elektron və sensor əsaslı müxtəlif mexanik layihələrini təqdim ediblər. 3D printerlə yaradılan prototiplər və onların funksionallığı, fizikanın müxtəlif qanunları əsasında hazırlanmış layihələr, alternativ enerji mənbələrinin alınmasında və hərbi əməliyyatlarda tətbiq edilə bilən konstruktor işlər və müxtəlif mexanizm modelləri, Leqolardan quraşdırılmış müxtəlif funksiyalı robotlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Sonda diplom və qiymətli hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universiteti yeni beynəlxalq layihəyə qoşulub

Ölkəmizin aparıcı ali təhsil müəssisələrindən olan Naxçıvan Dövlət Universiteti əməkdaşlıq etdiyi beynəlxalq layihələrdə də layiqincə təmsil edilməkdədir. Cari ilin fevral ayından Avropa Birliyinin həyata keçirdiyi “ERASMUS” proqramı çərçivəsində Hollandiyanın Vittenborq Tətbiqi Elmlər Universitetinin koordinatorluğu ilə başlanılmış “IQAinAR” layihəsi də universitetlərdə mütərrəqi təhsil metodlarının tətbiqi və təhsildə keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsində qabaqcıl təcrübənin əldə olunmasına yönəlib. Layihənin ölkəmizdən digər iştirakçısı olan Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə yanaşı, Rusiya Federasiyasından 4 universitetin iştirakçılarının onlayn formatda qatıldığı başlanğıc konfransında qarşıya qoyulmuş məqsədlər müəyyənləşdirilmişdir. Layihə çərçivəsində 3 il ərzində əməkdaş universitetlərdə daxili keyfiyyət nəzarəti üzrə treninqlərin keçirilməsi, burada qazanılmış təcrübənin əməkdaş ölkələrin digər ali təhsil müəssisələrində də tətbiqinə nail olunması nəzərdə tutulur. Təhsildə Avropa standartlarına uyğun nəzarət sisteminin tətbiqi, universitetlərdəki mövcud akademik heyət və tələbə kontingentinin dərs, praktik təcrübə və araşdırma sahələrində birgə əməkdaşlığının yaradılması layihə iştirakçılarının gözlədiyi hədəflərdəndir.

Müəyyən olunmuş tapşırıqların yerinə yetirilməsi məqsədilə ilk olaraq Naxçıvan Dövlət Universitetindəki layihə icraçıları universitetin məzunları, tələbələr, akademik heyət, inzibati idarəetmə strukturu, həmçinin məzunların işlə təmin olunduğu müəssisə və firmaların sahibkarlarının iştirakı ilə sorğular keçirmişlər. Sonrakı mərhələlər üçün məlumat bazası olacaq bu sorğu prosesində iştirak edənlər onlar üçün təqdim olunmuş vərəqələrdə keyfiyyətə nəzarətlə bağlı fikirlərini qeyd etmişlər. Sorğu prosesinə muxtar respublikanın elm, təhsil, idarəetmə, bank, sığorta, media, rabitə müəssisələri və sahibkarlıq subyektləri cəlb olunmuş, İqtisadiyyat Nazirliyi tərəfindən dəstək göstərilmişdir.

✍ **Əli CABBAROV**

## Orta ixtisas məktəblərinin tələbələri arasında müsabiqə keçirilir

Naxçıvan Muxtar Respublikasının tarixinin, mədəniyyətinin, milli irsinin araşdırılıb öyrənilməsi, gənclərdə vətənpərvərlik, mənəvi dəyərlərə hörmət, tarixi və milli köklərə bağlılıq hisslərinin gücləndirilməsi, tələbələr arasında sərbəst fikir, düşüncə tərzinin formalaşdırılması, ədəbi yaradıcılıq sahəsində istedadlarının müəyyənləşdirilməsi məqsədilə Naxçıvan Dövlət Texniki Kolleci və “Şərq qapısı” qəzetinin yaradıcı kollektivinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında esse müsabiqəsi keçiriləcək.

Bir mərhələdə keçirilməsi nəzərdə tutulan müsabiqədə yalnız mövzu ilə əlaqədar təqdim edilmiş esselər qiymətləndiriləcək, mövzudankənar yazılar müsabiqəyə buraxılmayacaq, tələbələrin yalnız müstəqil formada olmaqla, öz fikirlərini əsaslandırılmış şəkildə ifadə etdikləri esselər nəzərə alınacaq. Başqa vasitələrdən – dərslik, ensiklopediya, qəzet, jurnal, məqalə, internet resursları və sairdən istifadə edilərək hazır formada əldə edilmiş yazılar qiymətləndirilməyəcək. Esselərin həcmi 250-300 sözdən ibarət olmalı, yazılar kompüterdə A4 kağız formatında, hərflər “Times New Roman” şriftində və 14 yazı ölçüsündə yazılmalı, 26 may 2021-ci il tarixdən 15 iyul 2021-ci il tarixədək təhvil verilməlidir.

Esselər 5 ballıq sistemlə qiymətləndiriləcək. Qiymətləndirmə aşağıda göstərilən meyarlar əsasında aparılacaq:

Mövzunun başa düşülməsi, mövzu üzrə material, əsas fakt və hadisələri bilmə, tələbənin mövzuya orijinal yanaşması, öz fikirlərini əsaslandırılmış şəkildə ifadə etmək bacarığı, fikirlərin aydın və anlaşıqlı ifadə edilməsi, çıxarılan nəticələrin məntiqli və əsaslandırılmış olması, yazı üslubunun orijinallığı, dilin zənginliyi, obrazlılığı və səlisliyi, yazı işinin ədəbi dilin fonetik, leksik, qrammatik və üslub normalarına, orfoqrafiya və durğu işarələrinin işlədilməsi qaydalarına riayət etməklə tərtib olunması.

I, II, III yerlərə və həvəsləndirməyə layiq görülən müsabiqə iştirakçıları Naxçıvan Dövlət Texniki Kollecinin direktorluğu tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

Müsabiqənin yekun tədbiri 14 iyul 2021-ci il tarixdə, saat $12^{00}$-da Naxçıvan Dövlət Texniki Kollecinin iclas zalında keçiriləcəkdir.

**Xəbərlər şöbəsi**

## Fövqəladə hallara hazırlıq günün tələbidir

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası aprel ayı ərzində də təmin olunmuşdur.

Nazirliyin qarşılıqlı fəaliyyət planının 21 mərkəzi və yerli icra hakimiyyəti orqanı ilə dəqiqləşdirilməsi həyata keçirilmişdir. “Su hövzələrində insanların axtarışı və xilas edilməsi üzrə qarşılıqlı fəaliyyət planı”nın işlənilməsi təmin edilərək su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması üçün xəbərdaredici lövhələrin quraşdırılması təmin edilmişdir.

Nazirliyin Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı bölmələri ilə birlikdə Türkiyə Respublikasında keçirilən komando kursunda iştirak etmiş 9 nəfərdən ibarət şəxsi heyəti kursu müvəffəqiyyətlə başa vuraraq geri qayıtmış, Türkiyə Respublikasında keçiriləcək növbəti kurslara nazirliyin 10 nəfərdən ibarət şəxsi heyətinin göndərilməsi təmin olunmuşdur.

Ötən ay sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə 13 təhlükə potensiallı obyekt yoxlanılmış, 22 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilmiş, 14 müəssisədə 296 işçinin iştirakı ilə maarifləndirmə-profilaktika işi aparılmış, 10 müəssisənin 38 texnoloji nəqliyyat vasitəsi cari il üçün texniki baxışdan keçirilmiş, 19 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilərək texniki pasport və dövlət nömrə nişanı verilmişdir.

Hesabat dövründə 31 müəssisədə mülki müdafiə işinin təşkili vəziyyəti yoxlanılmış və metodik köməklik göstərilmiş, 24 müəssisədə 868 nəfərin iştirakı ilə maarifləndirici tədbir və mülki müdafiə qüvvələrinin şəxsi heyəti ilə qrup məşğələləri keçirilmiş, 7 içməli su anbarında, 10 göldə yoxlama aparılmışdır.

Muxtar respublikada virus infeksiyalarına və yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər davam etdirilərək yollar və səkilər daxil olmaqla, ümumilikdə, 7 milyon 453 min 574 kvadratmetr sahə xüsusi qurğu quraşdırılmış avtomobillər və xüsusi aparatlarla dezinfeksiya olunmuşdur.

Yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün 158 obyektdə diqqətli, 191 obyektdə nəzəri, 25 obyektdə məqsədli yoxlama, 22 obyektdə 926 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Ay ərzində 4 min 892 yaşayış evinə baxış olmuş, yanğın cəhətdən təhlükəli olan 65 elektrik və şlanqla çəkilmiş qaz xəttinin istismarı dayandırılmış, qazla işləyən 11 şofben tipli su qızdırıcısının və 208 tez qatlanan tüstü borusunun istismarı dayandırılmış, 11 min 708 nəfər yanğına qarşı təlimatlandırılmış, 58 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır. Həmçinin 49 obyektin layihə-smeta sənədləri ekspertizadan keçirilmiş, 46 obyektdə tikinti işlərinin norma və qaydalara uyğun aparılması yoxlanılmış, 2 obyektə “Tikintidə Dövlət Nəzarəti Jurnalı” açılmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvanda təşkil olunan qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı gərgin mübarizələrlə davam edir. Artıq beşinci tur geridə qaldı. Maraqlı oyundan sonra şahmatçılarla həmsöhbət olduq.*

## Naxçıvan şahmatçıların Vətəninə çevrilməkdədir



***Zeynəb Məmmədyarova – qadınlar arasında beynəlxalq qrossmeyster:*** – Mən 10 yaşımdan şahmatla məşğul olmağa başlamışam. İlk dəfə Naxçıvanda 2003-cü ildə keçirilən dünya çempionatında oynamışam. Azərbaycanın ən gözəl guşələrindən birində, mənim ən çox sevdiyim şəhərdə təşkil edilən oyunda qardaşım, tanınmış şahmatçı Şəhriyar Məmmədyarov oğlanlar arasında I, mən isə qızlar arasında III yerə çıxmışdım. Naxçıvan o vaxtdan uğur gətirib mənə. O gündən bu günə bizim ailənin bu diyara çox böyük bağlılığı, sevgisi vardır. Eyni zamanda muxtar respublikada şahmata həddindən çox böyük sevgi vardır. Burada uşaqlar da şahmatla sevərək məşğul olurlar. Bu, ilk növbədə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin idmana, xüsusilə də şahmata böyük qayğısının göstəricisidir. Mən deyərdim, Naxçıvan bu gün şahmatçıların Vətəninə çevrilməkdədir. Çünki burada şahmat yarışları çox möhtəşəm şəkildə keçirilir və dünyanın bütün ölkələrindən buraya axın olur. Mən bunu mütləq vurğulamalıyam ki, ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunan, Naxçıvanda keçirilən ənənəvi beynəlxalq şahmat festivalı xarici şahmatçılar tərəfindən də maraqla qarşılanır. Biz xaricdə təşkil edilən şahmat yarışlarında iştirak edəndə onlar həmişə soruşur ki, Naxçıvanda festival nə vaxt olacaq? Deyirlər ki, biz Naxçıvanda özümüzü daha çox hörmətli insan kimi hiss edirik. Doğrudan da, Naxçıvanda yarışlar çox yüksək səviyyədə keçirilir. Eşidəndə ki, Naxçıvanda qadınlar arasında ölkə çempionatı olacaq, buna həddindən çox sevindim. Pandemiyanın mənfi təsirindən sonra yenidən bu həyatı sevməyə, ümid eləməyə başladım. Buna biz şahmatçıların da çox ehtiyacı var idi. Digər tərəfdən bu çempionat Naxçıvanda keçirilirsə, şübhəsiz ki, təşkilatçılıq da yüksək səviyyədədir. Bizim üçün hər bir şərait yaradılıb, burada hamının böyük hörməti, sevgisi ilə qarşı-qarşıyayıq.

Yarışım barədə onu deyə bilərəm ki, beş turdan sonra hələ ki liderlər qrupundayam. Birinci, ikinci yerləri Gülnar Məmmədova ilə bölüşürük. Dörd oyun udmuşam, bir oyun heç-heçə olub. Qrossmeyster şahmatçımız, dünya kubokunda oynayan üç azərbaycanlı qadından biri olan Ülviyyə Fətəliyeva ilə oyunumuz heç-heçə ilə qurtarıb. Bu gün beynəlxalq qrossmeyster Xəyalə Abdulla ilə oynadım və qalib gəldim. Belə deyim ki, bu yarışda gənclər də fəal iştirak edirlər. İki şahmatçı Naxçıvandandır. Onlar da gözəl oyun üslubuna sahibdirlər. Sevindirici haldır ki, Naxçıvanda qızlar arasında şahmata meyil güclüdür. Bu, böyük uğurdur. Bəli, rəqiblərimin hamısı çox güclüdür. Xüsusilə gənclər həddindən çox şahmata meyilli olmaqla, hər gedişdə taktika işlədirlər. Ona görə mənim oyunum ən sonda qurtarır, rəqiblərimlə həddindən çox ehtiyatlı davranıram. Əgər bir balaca fikirləşsən ki, zəif rəqib var, bu sənin zəif şahmatçı olduğunu göstərir. Kiçik bir diqqətsizlik etsən, rəqibi qiymətləndirməsən, sonda uduzarsan. Rəqibə həmişə hörmətlə yanaşmaq lazımdır. Uğur qazanmaq üçün də məşğul olduğun sahəyə çox zaman ayırmalısan. İstedad dediyimiz də hər hansı bir sahəyə olan sevgi, məhəbbətdir. Bu varsa, uğur da qazanacaqsan. Buraya çempion olmaq üçün gəlmişəm. Bütün şahmatçılara qələbə yolunda uğurlar arzu edirəm.



***Səbinə İbrahimova – qadınlar arasında beynəlxalq usta:*** –Naxçıvan Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən bütün yarışların həm təşkilatçılıq səviyyəsi, həm də oyunçuları güclü olur. Mən 2013-cü ildən burada keçirilən yarışlarda iştirak edirəm. Burada təşkil edilən beynəlxalq şahmat festivallarına güclü qrossmeyster gəlir. Naxçıvanda təşkil edilən qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı isə yüksək səviyyədə davam edir. Bundan əvvəl kişilər arasında Azərbaycan çempionatı keçirildi. Bu yarışlar Naxçıvandan olan şahmatçılar üçün də bir təkan, stimuldur. Belə yarışların təşkili iştirakçıların təkmilləşməsinə, inkişafına şərait yaradır. Mənim də yaxşı nəticələrim olub, Naxçıvanda bu sahə üzrə xeyli təcrübə qazanmışam. Deyərdim ki, Naxçıvan şəhəri gözəl, tarixi şəhərdir, həm də məsafə cəhətdən yaxın olduğu üçün çempionatın burada təşkili məni sevindirdi. Hazırkı yarışda ilk turdan etibarən gərgin mübarizə gedir. Hələ çempionatın başa çatmasına bir neçə tur var. Çalışacağam ki, digər oyunlarda müsbət nəticələr əldə edim.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Növbəti turun oyunları olub

Şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatında növbəti turun oyunları keçirilib.

Təmsilçimiz Nəsrin Babayeva (1704) bu turda beynəlxalq usta Səbinə İbrahimovanı (2213) sınağa çəkib və qalib gəlib. Digər zəka sahibimiz Nazlı Hümbətova (1381) beynəlxalq usta Gülnar Məmmədovaya (2382) məğlub olub.

Liderlər cədvəlində qərarlaşan qrossmeyster Zeynəb Məmmədyarova (2274) bu turu da qələbə ilə başa vurub. O, qrossmeyster Xəyalə Abdulladan (2263) üstün olub. Eyni uğura FIDE ustası Ayan Allahverdiyeva (2088) FIDE ustası Ləman Hacıyevanı (1982) məğlub etməklə müvəffəq olub. Bu turda qrossmeyster Ülviyyə Fətəliyeva (2301) Səbinə Rzalını (1925) məğlub etdiyi halda, Mələk İsmayılla (1997) beynəlxalq usta Gövhər Beydullayevanın (2263) görüşündə sülh qeydə alınıb.

Turnir cədvəlinə hazırda 4,5 xalla Gülnar Məmmədova və Zeynəb Məmmədyarova başçılıq edirlər.

Bu gün 6-cı turun görüşləri keçiriləcək.



Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Nazlı Hümbətova - Zeynəb Məmmədyarova*

*Ayan Allahverdiyeva - Xəyalə Abdulla*

*Nəsrin Babayeva - Ləman Hacıyeva*

*Gövhər Beydullayeva - Səbinə İbrahimova*

*Səbinə Rzalı - Mələk İsmayıl*

*Gülnar Məmmədova - Ülviyyə Fətəliyeva*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonunun Yengicə kənd sakini Bağırova Nailə Nəcəf qızının adına verilmiş JN-898 inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 424